**Azərbaycan.** - 2024.- 20 noyabr. - № 255. - S. 12.

# COP29 Azərbaycana minlərlə dost qazandırdı

**Elşən Qəniyev**

**Azərbaycan beynəlxalq səviyyədə ilin ən mühüm tədbirlərindən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edir.**

Dövlətimizin başçısı Liderlər Sammitinin açılış mərasimində bildirdi ki, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək fürsəti nəsib oldu. Bu, bizim ölkəyə hörmət əlamətidir və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir.

COP29 işini yüksək səviyyədə davam etdirir. Qəzetimizin əməkdaşları dünən COP29 sədrliyi tərəfindən təşkil və idarə olunan "yaşıl zona"da olublar və konfrans iştirakçılarının fikirlərini bölüşüblər.

Həmsöhbətimiz Ərtoğrul və Gülcığ Atalık Türkiyədən gəldiklərini deyirlər. Ərtoğrul bəy deyir: "Bir millət, iki dövlət" olsaq da, bu, bizim Bakıya ilk gəlişimizdir. Əslində, 2020-ci ildə böyük Qarabağ Zəfəri zamanı Bakıya gəlmək, qardaş və bacılarımızın sevincini bölüşmək istəyirdik. Çox şadıq ki, Azərbaycana gəlmək arzumuz ölkənizdə belə bir möhtəşəm beynəlxalq tədbirin keçirildiyi günə təsadüf etdi. Qeyd edim ki, 2020-ci ildə bütün dünya Azərbaycanın hərbi qüdrətinə şahidlik edirdisə, bu gün dünyanın diqqəti yenə Azərbaycana, Bakıya yönəlib. BMT-nin təşkilatçılığı ilə keçirilən bu möhtəşəm tədbiri isə dövlətinizin dünyada siyasi zəfərinin təntənəsi hesab etmək olar. Qardaş Azərbaycan dövlətinin bütün uğurları ilə qürur duyuruq.

İki gündür ki, Bakıdayıq. Özümüzü dogma evimizdə olduğu kimi hiss edirik. Azərbaycanlı bacı-qardaşlarımız bizi çox mehribanlıqla qarşıladılar. Harada oluruqsa, özümüzə qarşı xüsusi diqqət, sevgi hiss edirik. Bakının gözəlliyi isə bir ayrı söhbətin mövzusudur.

COP29 yalnız iqlim dəyişikliyini müzakirə edən bir tədbir deyil, eyni zamanda yeni iqtisadi əlaqələr qurmaq üçün çox yaxşı fürsətdir. Biz dünyanın bir sıra ölkələrində, xüsusilə Afrika qitəsində sudan qıtlıq çəkən insanlara problemlərini aradan qaldırmaqda yardım edirik. Bu, bizim işimiz olmaqla yanaşı, həm də mənəvi rahatlığımızın təmin olunması deməkdir. COP29-da çıxış edib dünyada su problemi yaşayan insanlara öz xidmətimizi təklif edəcəyik. Belə bir fürsət qazandığımız üçün çox məmnunuq".

Gülcığ xanım deyir ki, Bakıdakı mehriban qarşılanma, insanların bizə olan sevgisi yaddaşına əbədi olaraq yazılıb. Azərbaycan torpağına ayaq basandan bu sevginin xoşbəxtliyini, istiqanlığı seyr etməkdədir: "Maraqlı bir hadisə isə heç vaxt yaddaşımdan silinməyəcək. Bizi gətirən taksi sürücüsü türk olduğumuzu bildikdən sonra yol xərcini almaq istəmədi. Xalqlarımız arasındakı qədim dostluqdan danışdı. Bakı ilə tanışlığımız Şəhidlər xiyabanından başladı…

Onu da deməyi borc bilirəm ki, COP29 çox mütəşəkkil təşkil olunub. Ölkəyə eyni vaxtda 70 mindən çox xarici qonaq gəlib. Bu qədər insanın qarşılanıb, hotellə, ərzaqla, nəqliyyatla təmin edilməsi ciddi təşkilatçılıq tələb edir. Məsələ burasındadır ki, söhbət etdiyimiz insanlar Bakıdakı şəraitdən çox razılıq edirlər. Bu da o deməkdir ki, COP29-da iştirak edən bütün insanlar öz ölkələrinə, evlərinə getdikdən sonra Azərbaycanda gördüyü gözəllikdən, sevgidən danışacaqlar.

COP29 Azərbaycana siyasi iqtisadi dividenddən başqa minlərlə dost da qazandırdı. Burada iştirak edən minlərlə insanı əminliklə dostunuz adlandıra bilərsiniz".

Keniyalı Valentina Cheruiyot isə deyir ki, COP29 işə başlayan gündən Bakıdadır. Belə gözəl şəhərdə, bu cür mehriban, qonaqpərvər insanların əhatəsində olmaqla həyatının ən yaddaqalan anlarını yaşayır. Valentina söhbətini başına gələn bir əhvalatı danışmaqla davam etdirir:

- Bakıya gəldiyim ilk gün yolu səhv salıb, lazım olan ünvana gedə bilmirdim, həyəcan keçirdim. Mənim bu vəziyyətimi hiss edən insanlar dərhal kömək etmək üçün ətrafıma toplaşdılar. Özümü qəribə bir dünyada hiss etdim. Hətta bəziləri məni qonaq kimi evlərinə aparmaq istədilər. Elə zənn edirdim ki, Bakıda tanımadığım insanların yox, xeyirxah mələklərin əhatəsindəyəm. Hətta adamlardan biri məni arxayın salmaq, qorxmamaq üçün polis çağırıb birgə hərəkət etmək istədiyini də təklif etdi…

Qaldığım hotelə qayıtdıqdan sonra düşüncələrim məni sakit buraxmırdı. Az qala hotelin pəncərələrini açıb azərbaycanlıları sevdiyimi, onların gözəl insan olduqlarını ucadan demək istəyirdim. Ölkəmə qayıtdıqdan sonra bu gözəl ölkə, onun mehriban insanları haqqında danışacağam.

COP29-da dünyanı narahat edən çox ciddi məsələlər müzakirə edilir. Ölkəniz əsasən dünyada karbohidrogen ixracatçısı kimi tanınır. Neft əbədi deyil, tükənə bilər. Ona görə də "yaşıl enerji"yə keçid olduqca vacidir. Bu vacib məsələnin məhz Bakıda müzakirə olunmasının ölkəniz üçün böyük əhəmiyyəti

var. Azərbaycan yaxın gələcəkdə dünyada "yaşıl enerji"yə keçid edərək onun ixracatçısı kimi öz sözünü deyəcək.

Səmimi insanların əhatəsində qeyri-səmimi olmaq mümkün deyil. Demək istəyirəm ki, ölkənizin siyasi, iqtisadi uğurunu öz şəxsi uğurum hesab edirəm.

Bakıdan ayrılıb getsəm də, bütün düşüncələrim bu gözəl şəhərdə, bu mehriban insanların yanında qalacaq.

Söhbətimizi Banqladeşdən gəlmiş Munçurul Hamankan ilə davam etdiririk: "20 il əvvəl Bakıda olmuşdum. O zaman Bakı bu qədər gözəl, təmiz və səliqəli deyildi. COP29-da iştirak etmək üçün hava limanında düşəndən ölkənizdə ciddi dəyişikliklər olduğunu gördüm. Bakı heyrətamiz dərəcədə gözəlləşib. Məni qınamayın, hətta Bakını gördükdən sonra bir qədər tərəddüd etdim. Fikirləşdim ki, ilahi, bu nə möcüzədir.

Ötən illərdəki iqtisadi inkişaf Bakını şəhər kimi çox gözəlləşdirib, insanların həyat tərzi yaxşılığa doğru dəyişib. Bu dəyişikliyi gördükdən sonra 2020-ci ildə müharibədə Zəfər qazanmanızın səbəbini də anladım. Hər şeyi bacarıqlı lider, güclü iqtisadiyyat həll edir. Fəxr edə bilərsiniz ki, dünyada öz sözü, əməli, həm də xeyirxahlığı ilə tanınan cənab İlham Əliyev kimi lideriniz var. İnkişaf etmiş, qalib, qüdrətli Azərbaycan onun əsəridir.

Mən əsrin möcüzəsi Ağ şəhərdə də oldum. Xəzərlə baş-başa vermis bu gözəl məkan məni valeh etdi. Qısa zamanda zibilliklərin, köhnə, hisli-paslı, qara damların yerində insanları heyrətləndirən bir şəhərin salınması oraları əvvəllər görmüş hər kəsi təəccübləndirə bilər.

Sizinlə açıq danışacağam: Bakının gözəlliyini gördükdə ürəyimdən yalnız bir arzu keçdi. Kaş mənim vətənim, şəhərim də belə olaydı. Bu ölkənin vətəndaşı olduğunuz üçün fəxr edin".

Digər banqladeşli həmsöhbətimiz Sheikha Usha isə dedi ki, bütün Azərbaycan xalqını 2020-ci ildə qazandığı böyük zəfərə görə təbrik edir. Müharibənin insanlara gətirdiyi bədbəxtliklərin nə olduğunu yaxşı bilir. Azərbaycan öz ərazilərini düşmən işğalından tam azad edib. İşğaldan azad olunmuş torpaqlarda zəfərin təntənəsi yaşanır. Keçmiş məcburi köçkünlər dogma torpaqlarına qayıdırlar. Dövlət onlara ev verir: "Qüdrətli ölkənin vətəndaşı olmaq özü böyük xoşbəxtlikdir… Sevinirəm ki, dost Azərbaycan xalqı haqq etdiyi müharibəsiz sakit həyatı yaşayır. Torpaqlarında müharibə gedən, günahsız vətəndaşları qətlə yetirilən Azərbaycan bu gün dünyaya sülh çağırışı ilə müraciət edir. Hamımızın ümumi evi olan dünyanın gələcək taleyi COP29 çərçivəsində Bakıda müzakirə edilir. Burada dünyanın hər yerindən qonaqlar var. Bədxahlarınız isə heç nəyə nail ola bilməyəcəklər. Onlar Azərbaycana heç nə edə bilməmələri, istədiklərinə nail olmadıqları üçün indi pərişandırlar.

COP29 Azərbaycanın dünyaya uzatdığı dostluq, qardaşlıq əlidir. Burada iqtisadi əməkdaşlıq, sülh, qardaşlıq, dünyanın bəşəri bəladan xilası müzakirə edilir. Kim bu müzakirələrdən kənar qalıbsa, onları dünya yox, şəxsi, cılız ambisiyaları düşündürür. Qazanclari isə istədiklərini həyata keçirə bilmədikləri üçün əsəb olacaq. Bəri başdan deyim ki, Azərbaycana qarşı ədalətsiz davranışı ilə seçilən Fransa artıq 2020-ci ildən Azərbaycana uduzur".

Digər həmsöhbətimiz Yoqa Hadiprastera İndoneziyadan gəlib. Yoqa deyir ki, ölkələrimiz arasında dostluq və qardaşlıq, sıx əməkdaşlıq münasibətləri Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə daha da möhkəmləndi. Bu illərdə biz öz torpağı, azadlığı uğrunda vuruşan, eyni zamanda haqqı tapdalanan xalqların azadlığına dəstək verən yeni bir dünya lideri cənab İlham Əliyevi tanıdıq. Vətən müharibəsi zamanı sizin yaşadığınız həyəcanlı günləri biz də yaşadıq. Azərbaycanla həmrəy olduğumuzu bildirdik. Çox şükür ki, bizim dualarımız, sizin mübarizəniz yaxşı sonluqla, möhtəşəm Zəfərlə nəticələndi. Azərbaycan xalqını qazandığı zəfərə görə təbrik edirəm.

Bu gün bütün dünyanın Azərbaycanda cəm olub bəşəriyyəti düşündürən problemi müzakirə etməsi ölkənizin dünya arenasında nüfuzunun göstəricisidir. Bu uğura yalnız ömrünü xalqına həsr etmiş qüdrətli Liderin rəhbərliyi ilə nail olmaq mümkündür. Xoşbəxt xalqsınız ki, Tanrı sizə xalqını zəfərdən-zəfərə aparan Lider qismət edib.